XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR

# LERİK



*Azərbaycan dünyaya*
*günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

№ 10 (5569) ✵ 20 İyul 2016-cı il ✵ Qəzet 1937-ci ildən çıxır ✵ Rayonun ictimai-siyasi qəzeti ✵ Qiyməti 40 qəpik


## DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI QEYD EDİLDİ

**Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında 23 İyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə tədbir keçirildi. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, Milli Məclisin deputatı İqbal Məmmədov iştirak edirdilər.**




Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov tədbiri giriş nitqi ilə açaraq dövlət qulluğunda çalışanları peşə bayramı münasibəti ilə təbrik etdi, dövlət quruculuğu sahəsində aparılan islahatların ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırdı. Bildirdi ki, müasir Azərbaycanın memarı olan ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı və 1995-ci ilin noyabr ayında ilk Konstitusiyanın qəbul edilməsi ilə hüquqi dövlət quruculuğunun əsası qoyuldu. Müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sisteminə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlara başlanıldı. Aparılan islahatlar nəticəsində çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, elektron hökumətin qurulması, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında yüksək dövlət təminatına və bütövlükdə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirməsinə nail olundu. Ulu öndərin sədrliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycanın dövlət quruluşunun və idarə olunmasının əsas prinsipləri təsbit olunmuş, dövlət hakimiyyətinin qanunverici, icra və məhkəmə hakimiyyətinə bölünən yeni modeli yaradılmış, onların təşkili və fəaliyyətinin əsas prinsipləri müəyyən edilmişdir. Dövlət quruculuğunun inkişaf etdirilməsi, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi istiqamətində görülən kompleks tədbirlər və işlər 2000-ci il iyulun 21-də «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə nəticələndi.

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanunu qəbul edildikdən sonra onun tətbiqi mexanizmini yaratmaq məqsədi ilə cənab Prezident tərindən onlarla qanun, fərman və sərəncamlar imzalanmış, dövlət qulluğunun bütün əsas istiqamətlərinin qanunvericilik yolu ilə tənzimlənməsini təmin etmək məqsədilə əsasnamələr, qaydalar, nümunələr təsdiq edilmişdir.

Bu gün hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində dövlət qulluğunun təşkili tamamilə yeni prinsiplərə əsaslanır. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət qulluğu siyasəti qanunçuluq və hesabatlılıq, şəffaflıq və müsabiqə, bərabərlik və cavabdehlik prinsiplərinə əsaslanan dövlət idarəçiliyi sisteminin daha səmərəli inkişaf etməsinə xidmət edir.

Cənab Prezident tərəfindən 2006-cı ildə dövlət qulluqçularının peşə bayramı gününün təsis olunması, hər il bu bayram münasibəti ilə dövlət qulluqçularının təltif edilməsini dövlət qulluqçularına göstərilən diqqət və qayğının nəticəsi olduğu qeyd edildi. Bu il bayram ərəfəsində rayon icra hakimiyyəti başçısının Tikəband kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Bəyəli Bədəlovun Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilməsini diqqətə çatdırdı. Bunun bütün lerikli dövlət qulluqçularına göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu vurğuladı.

Daha sonra rayon icra hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlipənah Bayramov 23 İyun - Dövlət qulluqçularının



peşə bayramı gününə həsr olunmuş geniş məruzə ilə çıxış etdi.

Tədbirdə Milli Məclisin deputatı İqbal Məmmədov, rayon polis şöbəsinin rəisi Hüseynəli Məlikov, təqaüddə olan dövlət qulluqçusu, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş Ədail Məmmədov və Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Lerik rayon komitəsinin sədri Ələkbər Salayev çıxış edərək dövlət qulluqçularını peşə bayramı münasibəti ilə təbrik etdilər.

Sonra dövlət qulluğunda səmərəli və qüsursuz fəaliyyət göstərən bir qrup dövlət qulluqçusuna rayon icra hakimiyyəti başçısı tərəfindən Fəxri Fərman və hədiyyələr təqdim edildi.

Sonda tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

## ŞƏHİD VÜSAL ƏLİYEV TORPAĞA TAPŞIRILDI



**5 iyul 2016-cı il tarixdə, saat 12:30-da Azərbaycan-Ermənistan dövlət sərhədində, Qazax rayonunun Abasbəyli-Məzəm kəndi istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən açılan snayper atəşi nəticəsində şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu, əsgər, 1996-cı il təvəllüdlü Əliyev Vüsal Əmir oğlu iyulun 6-da doğma Noda kəndində torpağa tapşırıldı.**



Dəfn mərasimində şəhidin doğmaları ilə birgə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin əməkdaşları, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məsul işçiləri, şəhidin qulluq etdiyi hərbi hissənin zabit və əsgərləri, müharibə veteranları, kənd sakinləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.



Matəm mitinqində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək şəhidin ailəsinə dərin hüznlə başsağlığı verdi. Vüsal Əliyevin torpaqlarımızın müdafiəsi uğrunda qəhrəmancasına şəhid olduğunu bildirdi. Şəhidlərimizin qanının yerdə qalmayacağını, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və əmri ilə müzəffər ordumuz tərəfindən torpaqlarımızın azad ediləcəyini qeyd etdi.

Aprel ayının əvvəllərində ordumuzun düşmən üzərində layiqli qələbə qazandığını, bir neçə vacib strateji yüksəklikləri geri qaytardığını bildirən icra hakimiyyətinin başçısı Azərbaycan Ordusu ilə xalqın yekdil birliyi, Ali Baş Komandanın cəsarətli qərarları nəticəsində hərbçilərimizdə yüksək döyüş əhval-ruhiyyəsinin olduğunu diqqətə çatdırdı. Torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş bütün əsgərlərimizin qisası güclü və qüdrətli ordumuz tərəfindən düşməndən alındığını, şəhidlərimizin əziz xatirəsinin həmişə qəlbimizdə yaşayacağını qeyd etdi. Vüsalın bütün leriklilərin övladı olduğunu və onun əziz xatirəsinin daim uca tutulacağını bildirərək, şəhidin atasına oğlu ilə qürur duymalı olduğunu bildirdi və Vətən sağ olsun, başın sağ olsun deyə başsağlığı verdi.

Böyük izdihamla keçən mitinqdə Azərbaycan Ordusu, Ali Baş Komandan və Qarabağla bağlı şüarlar səsləndirildi.

Sonra şəhid Vüsal Əliyevin xidmət etdiyi hərbi hissənin zabiti, polkovnik-leytenant Rasim Manafov çıxış edərək onun cəsur, igid və intizamlı əsgər olduğunu bildirdi. Ordumuz tərəfindən bütün şəhidlərimizin qisasının alındığını diqqətə çatdırdı. Sonra o, Vüsal Əliyevin tabutunun büküldüyü Azərbaycan Bayrağını atasına təqdim etdi.

Böyük ehtiramla torpağa tapşırılan şəhidin ruhuna dualar oxundu, yaylım atəşi açıldı.

Oğlunun tabutunun büküldüyü Azərbaycan Bayrağını qəbul edərək öpən şəhidin atası Əmir Əliyev Vüsalın şəhidlik zirvəsinə ucalmasından qürur hissi keçirdiyini, dəfn mərasiminin yüksək səviyyədə keçirilməsinə, göstərilən diqqətə görə ölkə başçısına və rayon rəhbərliyinə minnətdarlığını bildirdi.

Şəhidin məzarına tər qərənfillər və rayon icra hakimiyyətinin başçısı, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və SHXÇDX rayon şöbəsi tərəfindən əklillər qoyuldu.

## ASAYİŞİN LAYİQLİ KEŞİKÇİLƏRİ



Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə polis işçilərinin peşə bayramı gününə həsr olunmuş tədbir keçirildi.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidənin önünə tər güllər düzdülər.



Tədbiri giriş sözü ilə rayon polis şöbəsinin rəisi, polis polkovniki Hüseynəli Məlikov açaraq polis orqanlarının keçdiyi şərəfli yoldan, xalqımızın Ümummilli lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin dövlət strukturlarının, o cümlədən polis orqanlarının inkişafı və təkmilləşməsi üçün göstərdiyi diqqət və qayğını diqqətə çatdırdı, Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirildiyini qeyd etdi. Gündən-günə inkişaf edən respublikamızda ictimai asayişin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında polisin göstərdiyi xidmətlərdən danışdı.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov polis əməkdaşlarını peşə bayramı münasibəti ilə təbrik etdi, çətin və şərəfli peşələrində uğurlar arzuladı.

## Vətəndaşlarla səyyar görüş-qəbul keçirildi

**Rayon icra hakimiyyəti başçısının, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Orand kəndində vətəndaşlarla səyyar görüş-qəbulu keçirildi.**



Öncə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamladı, müqəddəs Ramazan bayramı münasibətilə təbrik etdi. Bildirdi ki, artıq ənənə halını almış növbəti yerlərdəki səyyar görüş-qəbula toplaşmışıq. Bu gün təsdiq edilmiş qrafikə uyğun olaraq sizlərlə birlikdəyik. Məqsədimiz cənab Prezidentin tapşırığına əsasən əhali ilə bilavasitə yerlərdə görüşüb, problemlərini dinləməkdir. Aidiyyatı idarə rəhbərləri, hüquq mühafizə orqanlarının rəhbərləri burada iştirak edir. Bildiyiniz kimi son illər cənab Prezidentin qayğı və diqqəti, tapşırığı və köməkliyi, Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş Dövlət Proqramlarının icrası nəticəsində rayonumuzda bir çox işlər görülmüşdür.

Son illərdə rayon icra hakimiyyətinin maliyyə dəstəyi ilə bir neçə kəndarası yollarda təmir işləri aparılmışdır. O cümlədən, 12 km-lik Lerik-Nuravud-Orand yolu 2 dəfə, bir dəfə əsaslı şəkildə, ikinci dəfə cari təmir edilmişdir. Bu yolun və Piran-Hamarat, Hamarat-Vıjaker yolunun əsaslı şəkildə yenidən tikintisi ilə bağlı 2013-cü ilin mart ayında tərtib edilmiş qüsur aktları Nazirlər Kabinetinə və Nəqliyyat Nazirliyinə təqdim edilmişdir. 2014-cü ildə isə Lerik-Nuravud-Orand yolunun qüsur aktı və ilkin layihə sənədləri Prezident Administrasiyasına, Nəqliyyat Nazirliyinə təqdim edilmişdir. Bundan başqa həm Orand kənd tam orta məktəbi üçün yeni binanın tikilməsi ilə bağlı iyul 2009, avqust 2012-ci ildə Nazirlər Kabinetinin, Fövqəladə Hallar, Təhsil, İqtisadiyyat Nazirliklərinin məsul əməkdaşlarının, rayon icra hakimiyyəti başçısının müavini və baş memarın, təhsil və maliyyə şöbə müdirlərinin iştirakı ilə 46 məktəb, eyni zamanda Orand məktəbinin qəzalı vəziyyətdə olması barədə tərtib edilmiş akt Nazirlər Kabineti və aidiyyəti nazirliklərə təqdim edilmişdir.



64 kəndin, Orand, Pirasora, Xanagah və digər kəndlərin qazlaşdırılması, elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı 2009-cu ildə "Azərenerji", "Azəriqaz" Dövlət Neft Şirkətinə, ən son olaraq 2013-də, 2015-ci ildə Baş Nazirə aidiyyatı Nazirlik və şirkətlərə dəfələrlə məktublar yazmış, əhalini narahat edən bu əsas problemlərin həllinə köməklik göstərmələrini xahiş etmişik.

Sizlərin müraciətini nəzərə alaraq burada tibb məntəqəsi və icra nümayəndəliyini yerləşdirmək üçün daxili imkanlarımız hesabına bu binanı inşa etdik.

Rayon elektrik şəbəkəsinin müdiri Səhrab Həsənov məlumat verərək bildirdi ki, artıq bütün sənədləşmə işləri başa çatdırılmışdır. İyul ayı ərzində Orand kəndində elektrik təsərrüfatının yenidən qurulması işlərinə başlanacaqdır.

Səyyar görüş-qəbulda vətəndaşların qaldırdığı məsələlərlə əlaqədar aidiyyatı vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

# ŞƏHİD OĞULLARI VƏTƏN YAŞADIR

Natiq Tahirli orta məktəbdə təhsilini başa vurdu. Atası Namiq soruşdu:

- Oğul, hansı sənət sahibi olmaq istəyirsən?

- Ata, sən uzun müddətdir Heydər Əliyev adına beynəlxalq hava limanında işləyirsən. Mən də sizin dəstəyə qoşulmaq istəyirəm.

- Yaxşı mütəxəssis olmaq üçün gərək oxuyasan.

Natiq dedi:

- Buna görə də Azərbaycan Milli Aviasiya Akademiyasında təhsil almaq istəyirəm.

- Yaxşı hazırlaş, ümidini itirmə, yolun açıq olsun...

Çox keçmədi ki, Natin sənədlərini akademiyaya təqdim etdi. Ancaq imtahanın nəticələri qaneedici olmadı.

- Oğul, ruhdan düşmə. Get Milli Orduda xidmət elə, qayıt gəl, sonra Allah kərimdir...

2015-ci ilin oktyabrı idi. Natiq əsgərliyə yola düşdü. Gəncədə "N" hərbi hissəsində təlim kursunu başa vurdu. Atası Namiq andiçmə mərasimində iştirak etdi. Komandir oğlundan razılıq edirdi. Natiqin nizam-intizamı, çevik əsgər olması, hərbi biliyini artırmağa həvəsi onu razı salırdı.

Namiq oğlu ilə bir neçə saatlıq görüşdən sonra Natiqin boynuna sarıldı:

- Oğul, Vətən hamı kimi sənə də güvənir. Yaxşı xidmətinlə başımızı ucalt, vətən səninlə fəxr etsin.

- Ata, inşallah, sən mənimlə fəxr edəcəksən, - dedi Natiq. Atasının kövrək baxışlarını görməmək üçün ondan uzaqlaşdı, yaxınlıqdakı əsgər yoldaşlarına qoşuldu...

Dekabr ayının sonuncu günləri idi. Namiq əsgər oğluna həm bayram sovqatı apardı, həm də Nati üçün darıxmışdı. "Necə də olsa əsgərlikdir, uşağın gözü yoldadır" düşünürdü.

Namiq Bakıya döndü. Özü ilə oğlunun ətrini də gətirmişdi. "Natiq necədir, darıxmır ki" – deyə soruşurdular. Ata hamıya: "Lap yaxşıdır, evdəkindən də özünü yaxşı hiss edir" - deyirdi. Gözlərinin önündən əsgər həyatı kino lenti kimi keçib gedirdi...

Həftədə azı 2-3 dəfə oğlu Natiqlə zəngləşər, hal-əhval soruşurdu Namiq. Atasına dedi:

- Bizi Naftalandakı kəşfiyyat batalyonuna gətiriblər, narahatçılıq yoxdur. Daha gəlmə yanıma.

- Özünü qoru, darıxma, Natiq.

Fevral ayında Natiq zəng etdi:

- Tərtərin Qapanlı kəndindəyik.

Mart ayında, Novruz bayramı ərəfəsində atası Natiqə zəng vurdu, onu və əsgər yoldaşlarını təbrik etdi, tezliklə ordumuzun qələbə çalmasına inamını ifadə etdi, salamatlıq arzuladı. Natiq evdəkilərin hamısı ilə danışdı, bayramlarını təbrik etdi. Əhvalı yaxşı idi. Ermənilərin cəbhə bölgəsində tez-tez atəşkəsi pozmasından narahatçılıq hissləri keçirən ailə üzvlərinə dedi:

- Siz qətiyyən narahat olmayın. Keçinin



buynuzu gidişəndə çobanın çomağına sürtər. Şəhidlərimizin qisası əvəzsiz qalmayacaq. İndiki ordumuz əvvəlki deyil. Əsgər dostlarımın vətənpərvərlik və döyüş ruhu yüksəkdir. Bir sözlə, döyüşə hazırıq...

Aprel ayının əvvəli idi. Natiq zəng etmirdi. Bu susqunluq atasını narahat edirdi. Artıq düşmən ordumuzun aprel "dərsini" almışdı. Strateji yüksəkliklər, bir sıra məntəqələr alınmışdı. Düşmən səksəkədə idi. Qoşunlarımızın dəqiq atəşləri nəticəsində düşmənin işğal etdiyi ərazilərimizdəki komanda – qərargah məntəqəsi və çoxlu sayda hərbi qulluqçusu – polkovnik və general rütbəli zabitləri məhv edilmiş, ağır itkilərə məruz qalan düşmən silah-sursatlarını ataraq öz mövqelərindən qaçmışdı. Minlərlə vətənpərvər, əsgəri xidmətə yaşı çatmayan gənclər, ehtiyatda olan hərbi qulluqçular, müharibə veteranları döyüşə hazır olduqlarını bildirirdilər...

Yalnız aprelin 11-də Natiq evə zəng eidi. İlk sözü bu oldu:

- Salam, ata, necəsən?

- Oğul, niyə zəng vurmurdun, axı biz narahatıq...

- Zəng etməklə hər iş həll olmur. Özün vəziyyəti yaxşı bilirsən.

- Mənfur erməniləri görürsənmi?

- 5-6 kilometr bizdən aralıda yerləşirlər.

Natiq bilə-bilə boyun almırdı. Deyirdi, qoy atam-anam darıxmasınlar. Dostu sinif yoldaşı Nazim Həmzəyevlə danışarkən ona düzünü deyirdi: "Ermənilərə çox yaxınıq, onlar qorxudan gözə dəymir, səslərini çıxarmırlar".

Mayın 17-si idi. Səhər hamı evdə idi. Mənzil-İstismar İdarəsinin müdiri evin zəngini basıb içəridəkilərdən Natiqin nənəsini soruşdu. Namiq dedi:

- Nə sözünüz varsa bizə deyin.

Onlar tələsik Namiqə baxıb bir şey demədən çıxıb getdilər. Namiq balkona çıxdı. Gördü ki, bir hərbçi bloka daxil oldu. Bakı şəhəri Nizami rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Rövşən Babayevi tanıdı. Namiqin ürəyinə dammışdı ki, nəsə olub. Ancaq nə? Gözlənilən xəbərə gümanı getmirdi. O, aşağı mərtəbəyə düşdü. Rövşən Babayevdən soruşdu:

- Ürəyimiz üzüldü. Axı, nə olub?

O, dinmədi, başını aşağı saldı.

- Axı, gecə Natiqlə danışmışdıq...

- Səhərə yaxın şəhid olub, snayperlə vurublar...

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, digər səlahiyyət sahibləri də gəldilər. Arif müəllim soruşdu:

- Şəhidi harada dəfn edək?

- Atamı Lerik rayonunun Almu kəndində dəfn ediblər. Natiqi də ata yurdunda torpağa tapşırmaq istəyirik, - dedi Namiq.

- Mən Lerik RİH-nin başçısı Rövşən Bağırova, sizin rayonunuzdan olan millət vəkili İqbal Məmmədov zəng edib tapşıraram...

Bir anlığa içərisində nəyinsə qırıldığını hiss etdi, ürəyi sıxıldı, taqətdən düşdü. Natiq gözlərinin önündə canlandı, uşaqlıq və gənclik illəri, əsgər paltarı geyindiyi anlar



yadına düşdü. Atalı günlərə qayıtdı. Çox şeyi xatırladı Namiq. "Gör nə arzulayırdım, fələk qarşısımı necə kəsdi..."

Namiqin babası Cahil kişi neftçi idi, halal zəhmətlə yaşayırdı. Nizami rayonunda şəhid İlham Müzəffər oğlu Əliyev küçəsindəki 7 saylı binada yaşayırdı. Cahil kişi doğulduğu Almu kəndinə qayıtdı. Yaşadığı evdə Namiqə qaldı. O, evli idi. Övladları dünyaya göz açdı. İlki Natiq Qarabağ müharibəsinin şəhidi Kamil Eyyubov adını daşıyan (Natiq bu məktəbin onuncu şəhididir) tam orta məktəbdə təhsil aldı, böyüyüb igidlər bulağından su içdi. Orta məktəbi bitirdi, ürəyi şirin arzularla döyünürdü. O, qeyri-adi xaraktere malik, milli ruhda köklənmiş yurdsevər, sağlam əqidəli, qeyrətli bir gənc idi. Namiq Mhatma Qandinin millət sevgili bu kəlamlarını xatırlayıb dostlarına deyərdi: "Ailəmiz uğrunda tər, dostumuz uğrunda göz yaşı, Vətənimiz uğrunda qan tökməli... Çox şəhid verən və fədakarlıq göstərən bir ölkə istədiyi səviyyəyə çata bilər". Müdrikcəsinə, uzaqgörənliklə deyilmişdir. Ən böyük sevgi Vətən sevgisidir və bu məhəbbət fövqəladə vəziyyətlərdə, ölüm-dirim çağlarında daha qabarıq aşkara çıxır...

***

Natiqin sinif rəhbəri, dilli-dilavər xanım Nailə Zeynalova Natiq barədə ürək yanğısıyla danışaraq dedi:

- Natiqin yoxluğu məni də yandırıb-yaxır. Düzdür, Vətən uğrunda şəhid olmaq ən ali məqamdır. Lakin Natiq ölməli oğul deyildi, o yaşamalı, Qarabağı azad görməli, istəklərinə qovuşmalı idi.

Natiq məktəbimizdə ədəb-ərkan nümunəsi idi. Biz onunla həmsöhbət olanda özümüzü yığışdırırdıq. O, az danışardı, hər şey barədə fikirləşərdi. Şagirdlərə vətənpərvərlikdən inşa yazdırırdım. Natiq sakit oturub heç nə yazmırdı. Ona yaxınlaşıb dedim:

- Natiq, heç olmasa 5-6 cümlə yaza biləsən.

O, dedi:

- Müəllim, məsələ inşa yazmaqla deyil, lazım olan işi görmək lazımdır...

Almu kəndində dəfnetmə mərasimi izdihamla müşayiət olundu. Yer-göy də şəhid Natiqə matəm simfoniyası çalırdı sanki...

Şəhidin əmisi Kamil ANS telekanalının müxbirinə müsahibəsində deyirdi:

- Qardaşım oğlu, şəhid Natiq bizə başıucalığı gətirdi, canını Vətən yolunda fəda etməsi bizə qürurverici hisslər yaşatdı. Əvvəllər bir ailənin oğlu idi, indi bütün Azərbaycanın övladıdır. Əsgərlərin açdığı hər bir atəş düşmənə xəbərdarlıqdır...



...Natiqin doğulub boya-başa çatdığı evdə oturmuşam. Qardaşları Yusiflə Miradili dindirirəm. Təbəssümlə cavab verirlər. Yusif deyir ki, Natiqi yuxumda görmüşəm.

- Sənə nə deyirdi?

Yusif çiyinlərini çəkdi:

- Yadımda deyil.

Hər şey yerindədir, təkcə Natiq yoxdur. Onun məzarına bükülən, indi evi bəzəyən, fəxarət hissi oyadan Natiqi xatırladan üçrəngli bayraq çox müqəddəsdir. O bu müqəddəslik uğrunda canından keçdi... Natiq sağlığında çəkdiyi şəkildə bayrağımızı çiyinlərinə bükub. Düşündürücüdür...

Birdən gözüm rəfdəki kitaba dikilir.

- O kitaba baxmaq olarmı?

Namiq deyir:

- Əlbəttə. Kitabı mənə uzadır. Məşhur lerikli cərrah Elxan Bədəlova həsr elədiyim "Dünyadan bir loğman köçdü" kitabımdır. Onu 2010-cu ildə şəhidin mərhum babası Adil Tahirova avtoqrafla vermişəm. O, çox vətənsevər idi. "Belə babanın Natiq kimi nəvəsi olar" düşünürəm.

Qarı düşmən, unutma: "Başqa xalqların haqlarını qəsb edən xalq öz azadlıq və səadətinə qovuşa bilməz" (İ.Bentam)

Lələtəpə uğrunda əsl şücaət və qəhrəmanlıq göstərmiş neçə-neçə igidin sinəsində qırmızı lalələr, qərənfillər bitdi...

Natiqin xatirə lövhəsi yaşadığı binanın önünə vurulub. Onun mənalı baxışları gənclərimizə mübarizə dərsi keçir...

Xalqımızın qəhrəman oğlu Natiq Tahirli barədə xatirələr bitmir, tükənmir. Birinin nəhayəti digərinin başlanğıcıdır...

***İdris Şükürlü***

# VÜSALI TORPAQ AĞUŞUNA ALDI



**Şəhidlərdən çox yazmışam. Azərbaycan torpaqlarını müdafiə edərkən canından keçmiş şəhid qartallarının neçəsinin dəfn mərasimində iştirak etmişəm. Ürəyim ağrıyıb, qəlbimə qəm-kədər dolub. Tarixi anları unutmamışam, şəhidlik şəhadətinə, uca məqama yüksəlmiş əyilməz əsgərlər haqqında ürəkdən yazmışam. Sonra bu eligiyaları cəm edib kitab halında çap etdirmişəm.**

O gün isə... Canından artıq istədiyi ana torpağa tapşırılan gün idi Vüsalın. O əsgəri borcunu yerinə yetirib geri dönməliykən ağır sınaqlardan keçməli oldu, mənfur düşmən məkrli düşmən gülləsinə tuş gəldi. Əslində düşmən atəş açıb öldürməyə, Vüsal isə gülləni öz bədəninə qəbul etməyə hər an hazır idi. Təki ana torpaq yaralanmasın, bağrına qan dolmasın...

...Vüsalın dəfnetmə mərasimi izdihamla müşayiət olundu. Əsgər yoldaşlarından tutmuş komandirlərinədək hamı vida mərasimində idi. Lerik Rayon İcra Hakimiyyəti, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin işçiləri, rayon ictimaiyyətinin nümayəndələri, Noda kəndinin, qonşu kəndlərin sakinləri vida mərasimində idilər. Hamı Vüsalın ölümünə yanır, atası Əmirə, anası Qərənfil xanıma dayaq olmaq, təskinlik vermək istəyirdi. Ramazan ayı bitən bayram günü Noda kəndi daha hüznlü görünürdü. Qürur hissi yaradan bu idi ki, elə gələn kədər bayrama dönmüşdü...

Hüzn mağarında müstəqil Azərbaycan bayrağının üstündə şəhid Vüsal Əliyevin böyüdülmüş şəklində – sanki bayraq Vüsala dayaq durmuşdu, orada Vüsal daha məğrur və əyilməz durmuşdu. Diqqətimi çəkən məqamlardan biri də bu idi ki, Əmirgilin ata evinin eyvanında dalğalanan byarağımız bizə çox şey deyirdi...

Söz ki, şəhidlikdən gedir, müqəddəs "Qurani-Kərim"də deyilir ki, bir qrup adamlar sorğu-sualsız cənnətə daxil olurlar ki, şəhidlər də bu qismdəndir.

Yeri behişt olan 20 yaşlı şəhidin – qəhrəmanın axirət dünyasından narahat olmağa dəyməz, axı o, şəhiddir, haqqa dönmüş şəhiddir!

Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasında şəhidlərimizə verdiyi bədii-fəlsəfi dəyər belədir ki, "Bizim şəhidlərimizin tökülən qanı, Haqqın kitabında imzamız oldu".

Azadlıq verilmir, alınır, dayan!
Onun elçisidir ölüm, qan-qada!
Ölümə, cəfaya hazır olmayan
Millət hazır deyil azadlığa da!

Şəhid Vüsalın, onun amal qardaşlarının axıtdıqları qan xalqımızın haqq işi uğrunda özünü təsdiqin ifadəsidir, haqqın-ədalətin carçısı olduğunun qanla yazılmış müqəddəslik imzasıdır!

...Şəhid Vüsal Əliyevin atası, Qarabağın Tərtər və Füzuli ərazilərində 1992-ci ildən 1994-cü ilə kimi döyüşmüş vətənpərvər Əmir Əliyevlə söhbət edirəm. O, öncə keçdiyi döyüş yolunu, silahdaşlarını xatırlayır.

- Vətən darda olanda cəbhəyə yollandım. Azərbaycanın ilk Milli Qəhrəmanlarından biri olan Valeh Müslümovla bir yerdə döyüşmüşük. Həmkəndlim Habil Nəciyev gözümün qabağında yaralandı və canını tapşırdı. Oğlum Vüsal kəndimizin 5-ci şəhididir.

- Oğlun Vüsal indi təkcə sənin yox, el-obanın, Azərbaycanın övladı, hamımızın fəxridir. Gəlin Vüsaldan danışaq...

- Bilirəm, sən şəhidlər barədə kitab yazmısan, Qarabağ mövzusunda dörd kitab müəllifisən. Sağ ol ki, Vətən yolunda can qoyanlara mənəvi həyat verirsən. Mənim oğlum Vüsal qızım Şəmsiyyədən sonra ortancıl övladımdır. Oğlum Hüseyn sonbeşikdir. 1996-cı il dekabr ayının 22-də anadan olmuşdur. Bakıda rabitə kollecini bitirmişdi. Vüsal seibukai kontakt karate idman klubunun fəal üzvü kimi Xəzər rayon açıq turunda layiqli yerlər tutduğuna görə 7 dəfə medalla sertifikat və diplomlarla təltif olunmuş, üç növ kəmər almışdı. Tay-tuşları əsgər getsə də, həkimin məsləhəti ilə hələ onu aparmamışdılar. Lakin Vüsal təkidlə əsgərliyə getmək istəyirdi. 2016-cı ilin yanvarında Milli Orduda həqiqi hərbi xidmətə yollandı. Gəncə şəhərindəki hərbi hissədə hazırlıq keçdi. Andiçmə mərasimində qardaşı Hüseyni Gəncəyə göndərmişdim. Vüsaldan əminliklə danışırdı. Deyirdi ki, əsgər paltarı ona çox yaraşır. Hərbin qaydalarını həvəslə öyrənir, əsgər yoldaşları, komandirləri arasında hörmət qazanıb...

Vüsal Əliyev aprel döyüşlərindən sonra özünü daha güclü hiss edirdi. Xüsusilə də strateji yerlərin Milli Ordumuz tərəfindən ələ keçirilməsi əsgərlərimizə yeni ruh vermişdi. Vüsal Qarabağı işğaldan azad edənlərin sırasında olacağına inanırdı. Cəbhə xəttində gərginlik yaşansa da, Vüsal və dostları əsla qorxmurdular.

Martın 28-i idi. Vüsalın xidmət etdiyi Qazax rayonunda ermənilər atəşkəsi tez-tez pozur, Milli Ordumuzun onları məruz qoyduğu ağır itkilərin əvəzini çıxmağa cəhd göstərirdilər. Ancaq əbəs yerə: təcavüzkar düşməni aprel döyüşlərindən daha şiddətli döyüşlər gözləyirdi.

İyulun 5-i idi. Vüsalın yerini yeni postda dəyişmişdilər. Ermənilərə daha yaxın idi. Həmişəki kimi Vüsal postda idi. Sən demə,



hiyləgər düşmən onu izləyirmiş. Məqam tapan kimi snayperlə atəş açır, Vüsalın ömrünə son qoyulur... Bu atası Əmir üçün acı xəbər olsa da...

Həmin gün Vüsalın atası zəng vurub onunla danışmışdı.

- Ata, ermənilərlə üzbəüz mövqedəyik. Gözə dəymirlər. Lakin postda möhkəm dayanmışıq.

- Oğul, unutma ki, düşməndən hər şey gözləmək olar. Tanrı səni qorusun...

...Gün-günorta yerinə əyilmişdi. Əmir həmin gün Vüsalı yuxusunda görmüşdü. Hövlnak oyanıb düşündü: "Allah xeyirə calasın, axırını xeyr eləsin". Telefonun düyməsini basdı. Səsini tanımadığı kişi cavab verdi:

- Siz kimsiniz?

- Vüsalın komandiriyəm.

- Bəs Vüsal hanı?

- Oğlunuz Vüsal igid bir əsgər kimi şəhadətə qovuşdu, Vətən qarşısında borcunu yerinə yetirərkən şəhid oldu. Başınız sağ olsun...

Əmirin düşdüyü vəziyyət, keçirdiyi hisslər, düşüncələr barədə yazmaq çətindir...

Vüsalın dəfn mərasimi ANS televiziya kanalından yayımlandı. Əmirin dostu Yaşar Ağayev dedi:

- Şəhidlik ali məqamdır. Vüsalın bu məqama ucalması bütün el-obanın, xalqın ucalığıdır...

Babası Xanağa Əliyev deməyə söz tapa bilmir. Nəvə itkisi onun qəlbini yandırıb.

Müəllimi Əliyar Ağayev:

- Vüsalın adı kimi özü də müqəddəsləşdi. Vətənin müdafiəsindən söz düşəndə onun gözlərində qıcılğım görünürdü. Onun sözü əməlini tamamladı...

Mirabbas Vəliyev (Noda kənd icra nümayəndəsi) deyir:

- Vüsalın şəhid olmasını el-oba kədərlə qarşıladı, torpağa fəxrlə, qürurla tapşırdı. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olması tarixə yazıldı...

Azərbaycanın Milli Qəhrəmanı Namik Əliyev dostu Əmir Əliyevə acı da olsa təskinlik verirdi. Deyirdi ki, şəhidlik igidlərin alnına yazılıb, boyuna biçilib. Vətən belə oğullara arxalanır və onlarla fəxr edir...

Qardaşı Hüseyn Vüsalın şəhid olduğu səngərə baxmış, qanının çiləndiyi torpağı öpmüş və geri qayıtmışdır.

Bu da son... Vüsalın cismi Vətənin bir ovuc torpağına döndü.

Vətən qəhrəman oğlunu çox sevdiyindən ağuşuna aldı.

Onu məzara apardı Vətən andı, öyüdü. Ruhu bizimlədir, gedən cismidir...

Sən getdin, ucaldın asimanlara,
Göydən boylanırsan Qarabağlara...

***İ.Mütəllimoğlu***

# İCTİMAİ DİNLƏMƏ KEÇİRİLDİ

**Lerik Rayon mədəniyyət mərkəzində “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi məqsədi ilə ictimai dinləmə keçirildi.**

**Əvvəlcə İnsan Hüquqları Üzrə Müvəkkil (Ombudsman) Elmira Süleymanova və Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Heydər Əliyev meydanında ümummilli liderin abidəsini ziyarət etdilər, abidə önündə gül dəstələri düzdülər.**







Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası istiqamətində Lerik rayonunda həyata keçirilmiş tədbirlər haqqında məlumat verdi. Bildirdi ki, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsi dövlət siyasətinin ən başlıca xəttini təşkil edir. Bütün dövlət orqanlarının, o cümlədən rayon icra hakimiyyətinin fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri də insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, bu istiqamətdə müvafiq maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrasının təmin edilməsi məqsədi ilə rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər planına uyğun olaraq Milli Fəaliyyət Proqramından irəli gələn vəzifələr üzrə ötən dövr ərzində insan və vətəndaş hüquq və azadlıqlarının qorunması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova çıxış edərək bildirdi ki, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” insan hüquqlarının qorunması sahəsində islahatların yeni bir mərhələsidir. Ötən illərdə ölkəmizdə həyata keçirilən demokratik, hüquqi, sosial-iqtisadi islahatlar nəticəsində əhalinin rifah halı daha da yaxşılaşmış, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları uğurla həyata keçirilmiş, Azərbaycanın hər bir şəhər və rayonu inkişaf etmişdir. Respublikamızın hər bir bölgəsində insan hüquq və azadlıqlarının tətbiqi və təbliği vəziyyətinin monitorinqi, eyni zamanda əhalinin hüquqi maarifləndirilməsi istiqamətində ictimai dinləmələr mühüm əhəmiyyət kəsb edir. İnsan hüquqları üzrə müvəkkil respublikamızın yeni inkişaf mərhələsində əsas hədəflərin çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatının formalaşdırılması, sosial sahədə önləyici inkişaf səviyyəsinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəldiyini, habelə elmin, mədəniyyətin tərəqqisində, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasının insan hüquqlarının daha etibarlı qorunmasına mühüm töhfələr verdiyini bildirdi. Müvəkkilin təşəbbüsü ilə respublikada 18 iyun - İnsan Hüquqları Günü ərəfəsində “İnsan hüquqları aylığı” elan edildiyi, aylıq çərçivəsində tədbirlərin keçirildiyi xüsusi olaraq vurğuladı.

Müzakirələrdə çıxış edən rayon ağsaqqallar şurasının sədri Həmzə Vəlimməmmədov, Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü liseyinin direktoru, Gültəkin Şıxəliyeva, Uzunömürlülər muzeyinin direktoru Dilarə Fətullayeva, Cəngəmiran bələdiyyəsinin sədri Güləddin Şahverənov, Lerik şəhər uşaq bağçasının müdiri Lalə Əliyeva, Mastail kənd tam orta məktəbinin direktoru Avdıl Ramazanov insan hüquq və azadlıqlarının həyata keçirilməsində rayonda görülmüş işlər və mövcud problemlər barədə məlumat və təkliflər verdilər.

Rayon polis şöbəsinin rəisi Hüseynəli Məlikov çıxış edərək insan hüquqlarının həyata keçirilməsi üzrə fəaliyyət, müvafiq qanunvericilik, inkişaf göstəriciləri barədə məlumat verdi, hüquqi maarifləndirmə ilə bağlı həyata keçirilən tədbirləri diqqətə çatdırdı.

Tədbirin sonunda İnsan Hüquqları Üzrə Müvəkkil (Ombudsman) Elmira Süleymanova bir qrup vətəndaşı qəbul etdi.




# “SAHİBKARLIĞIN GÜZƏŞTLİ KREDİTLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ”NƏ DAİR İŞGÜZAR FORUM




**Ambu kənd tam orta məktəbində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun təşkilatçılığı, Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Lənkəran iqtisadi rayonu üzrə Lerik rayonunda fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizminin izah edilməsi, rayonda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələrin təqdim olunması, onlarla müvəkkil kredit təşkilatları arasında qarşılıqlı inamın artırılması məqsədi ilə “Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələləri”nə dair işgüzar forum keçirildi.**

Forumda Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev iştirak edirdilər.

Forumu giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə, o cümlədən rayonumuzda sahibkarlığın inkişafı üçün lazımi şərait yaradıldığını qeyd etdi. Bildirdi ki, sahibkarlığın inkişaf etdirilməsi üçün güzəştli kreditlərin verilməsi, bu sahədə yaranan problemlərin həll edilməsi daim diqqətdə saxlanılır.

Forumda Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev çıxış edərək 2016-cı ilin ötən dövrü ərzində 1209 sahibkara 66 milyon manat dəyərində güzəştli kreditin verildiyini, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 2800-dən çox yeni iş yerlərinin yaradıldığını diqqətə çatdırdı. Qeyd etdi ki ümumilikdə indiyədək Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2891 investisiya layihəsinin maliyyələşdirilməsinə 105,6 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistik mərkəzlərin, taxıl anbarı, cins heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin, çörək zavodlarının, meyvə-tərəvəz emalı, tikinti materialları, süfrə suları, mebel istehsalı müəssisələrinin, çayçılıq, üzümçülük, intensiv bağçılıq təsərrüfatlarının yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 10500-dən çox yeni iş yerinin açılması imkanı yaradılmışdır

İşgüzar forum çərçivəsində Lənkəran iqtisadi rayonunda fəaliyyət göstərən 59 sahibkara 516 min manat güzəştli kredit verilmişdir. Bu kreditlər əsasən, heyvandarlıq, arıçılıq, çörək istehsalı sahələrinin inkişafına yönəldiləcəkdir. Bu kreditlərin reallaşdırılması hesabına 80-ə yaxın yeni iş yerinin açılması mümkün olacaqdır.

Forum çərçivəsində sahibkarları maraqlandıran suallar cavablandırılmış, Lerikdə güzəştli kredit ayrılmış və gün ərzində 6 ton çörək istehsal etmək gücü olan müəssisəyə və illik istehsal gücü 3,5 min ton olan quşçuluq fabrikinə baxış keçirilmişdir.

# 17 İYUN - AZƏRBAYCAN RESPUBLİKASI TİBB İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR



**17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibəti ilə Heydər Əliyev Mərkəzində ümumrayon tədbiri keçirildi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, rayon icra hakimiyyəti başçısı aparatının, idarə, təşkilat və müəssisələrin əməkdaşları, tibb işçiləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.**



Lerik Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Mübariz Ağayev tibb işçilərinin peşə bayramı günü münasibəti ilə şərəfli peşə sahiblərini təbrik etdi. Bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il iyunun 17-də təsdiq olunmuş 2-ci hökumət kabinetinin strukturunda ilk dəfə olaraq Səhiyyə Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncamla respublikanın sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətləri və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq hər il iyunun 17-nin Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Tədbirdə Səhiyyə İşçiləri Həmkarlar İttifaqının rayon komitəsinin sədri Müqabil Məmmədov, rayon mərkəzi xəstəxanasının şöbə müdiri, əməkdar həkim Sadiqə Rufullayeva, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının sədri Elxan Qənbərov, Azərbaycan Ziyalılar Cəmiyyəti rayon şöbəsinin sədri Etibar Həşimov, rayon ağsaqqallar şurasının sədri Həmzə Vəlimməmmədov çıxış edərək ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyədə də inkişafın və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması yönümündə böyük tədbirlərin həyata keçirildiyini vurğuladılar, ölkə rəhbərliyinə rayonun səhiyyə sahəsinə, tibbi işçilərinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə etdilər.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək bildirdi ki, əhalinin sağlamlığının qorunması, tibbi yardımın keyfiyyətinin yüksəldilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqətində olmuş, bu sahə üzrə əhaliyə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması üçün müvafiq hüquqi aktlar qəbul edilmişdir. Müxtəlif vaxtlarda Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə bir qrup tibb işçiləri fəxri adlara, dövlət təltiflərinə layiq görülmüşlər. Onların arasında rayonda fəaliyyət göstərən tibb işçiləri də olmuşdur. Bütün bunlar ölkə başçısı tərəfindən tibbi personala göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov səhiyyə sahəsində uzunmüddətli qüsursuz və səmərəli əmək fəaliyyətinə görə, 65 illik yubileyi və 17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibəti ilə Lerik Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunmuş rayon mərkəzi xəstəxanasının həkim-laborantı Həşim Nəsirova, rayon mərkəzi xəstəxanasının həkim-oftalmoloqu Güloğlan Abbasova, Blaband kənd həkim məntəqəsinin müdir əvəzi Əliqulu Ələkbərova, Nüvədi kənd tibb məntəqəsinin müdiri Kamal Kazımova fəxri fərmanları təqdim etdi.

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİN: AZƏRBAYCAN MODELİ"





**Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında rayonun din xadimlərinin, məscid dini icma sədrlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda seminar keçirildi. Seminarda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı və komitənin Lənkəran regional şöbəsinin müdiri Qağayı Məmmədov iştirak edirdi.**

Tədbiri giriş sözü ilə açan Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev çıxış edərək rayonda mövcud dini durum və bu sahədə görülmüş işlər barədə məlumat verdi. Bildirdi ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi strateji kursun nəticəsidir ki, Azərbaycan dünyada ən tolerant ölkə kimi tanınır, müxtəlif dinlərin və dini konfessiyaların birgə fəaliyyət göstərdiyi məkan kimi dünya ictimaiyyətinin və mediasının diqqətini cəlb edir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda məruzə etdi. Azərbaycanın müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar olduğunu, cənab Prezidentin həyata keçirdiyi siyasət və xalqımızın tarixlər boyu bu dəyərlərə verdiyi önəmin, insanpərvər və sülhsevər siyasət nəticəsində ölkəmizdə multikulturalizmin alternativi olmayan həyat tərzinə çevrildiyini bildirdi. Azərbaycan Respublikası Prezidentinin Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixdə sərəncam imzalaması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsi olduğunu qeyd etdi.

Son illər ölkəmizdə bu mövzularda müxtəlif beynəlxalq tədbirlər keçirildiyini, 2016-cı ilin aprel ayında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində Respublikamızın fəaliyyətinə verilən ən yüksək qiymət olduğunu diqqətə çatdırdı.

Məruzə ətrafında Lerik şəhər "Cümə" məscidi dini icmasının sədri, Qafqaz Müsəlmanları İdarəsi sədrinin səlahiyyətli nümayəndəsi Hacı İlham Əliyev, Peşə məktəbinin direktoru, Hüseynbala Əliyev, Lüləkəran kənd məscidi dini icmasının sədri Rauf Əliyev, ağsaqqal Musa Bədəlov, rayon Ağsaqqallar Şurasının sədri Həmzə Vəliməmmədov çıxış edərək həmişə həm dövlətçiliyə, həm də dini və milli adət-ənənələrə sadiq olan Lerikdə tam dini sabitliyin olması, Azərbaycandakı dünyaya nümunə olan tolerantlıq mühitinin qorunması məqsədilə dini mühitdəki radikal elementlərin, ekstremist fikirlərin, qeyri-ənənəvi dini cərəyan və təriqətlərin məscidlərimizə, dini ibadət evlərinə təsirinin qarşısının alınmasının daim nəzarətdə saxlanıldığını qeyd etdilər.

# İftar süfrəsi verildi



**Lerik şəhərindəki "Xeyir-şər" evində Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ramazan bayramı münasibəti ilə şəhid ailələri, Böyük Vətən Müharibəsi, Qarabağ müharibəsi, Çernobl əlilləri, imkansız ailələr, ağsaqqallar və ictimaiyyət nümayəndələri üçün 300 nəfərlik iftar süfrəsi verildi.**

İftar mərasimi rayonda fəaliyyət göstərən dini icmaların rəhbərləri tərəfindən Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.

Mərasimdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov iftar süfrəsində iştirak edənləri salamlayaraq onları bayram münasibəti ilə təbrik etdi. Ramazan ayının həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayı olduğunu bildirdi. Azərbaycanda və eləcə də Lerik rayonunda açılan bu iftar süfrələrinin ölkəmizdə ənənəvi tolerantlıq nümayiş etdirdiyini vurğuladı. Ölkəmizdə sabitlik, davamlı inkişaf, birlik, vicdan azadlığı və tolerantlığın hökm sürməsinin Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasət nəticəsində mümkün olduğunu və bu siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də uğurla davam etdirdiyini, Prezidentin yürütdüyü siyasət nəticəsində Azərbaycanda tolerantlıq ənənələrinin daha da möhkəmləndiyini, ölkəmizdə məscid və dini ibadət yerlərinin inşa edildiyini diqqətə çatdırdı.

İftarda Ramazan duası oxundu.

# YOLUNUZ AÇIQ OLSUN!

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik Rayon Şöbəsinin həyətində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, qavrdiya general-mayoru, əfsanəvi sərkərdə Həzi Aslanovun heykəli önündə çağırışçıları hərbi hissələrə yolasalma mərasimi olmuşdur. Valideynlər, yaxınlar da burada idilər. Müfəttiş İlqar Məmmədov deyir ki, Etibar Məmmədov, Ramin Ağayev, Kənan Həsənov, Azər Ağayev, Orxan Kazımov, Sübhan Ağayev, Afiq Şabanov Milli Ordu sıralarına yola düşərək çox şən və cəsarətli görünürlər. Onlar qələbəyə böyük inam hissi ilə Ali Baş Komandana, ordumuzun gücünə inanırlar. Deyirlər ki, Qarabağda Qələbə bayrağımızı sancmağa, şəhidlərimizin qisasını almağa çox vaxt qalmayıb...

Xidmətin rəisi, polkovnik-leytenant Fəxrəddin Mirzəliyev gənc çağırışçılara Azərbaycan Silahlı Qüvvələri sırasında əla xidmət etməyi, əmr və tapşırıqları sözsüz yerinə yetirməyi, yaxşı yol arzulayır.

Çox keçmir ki, rahat maşın yola düşür. Hamı yaxşı yol arzulayır.

**"Lerik"**

# Şurada üç məsələ müzakirə olundu





Lerik rayon mərkəzi xəstəxanasının baş həkimi yanında tibbi şuranın növbəti yığıncağı keçirilmişdir. Şuranı giriş sözü ilə Lerik RMX-ın baş həkimi Mübariz Ağayev açmış və müzakirə olunan məsələlərin aktuallığından danışmışdır. "Çayrud kənd xəstəxanasında 2016-cı ilin ötən altı ayı ərzində əhaliyə göstərilən tibbi xidmətin vəziyyəti barədə" poliklinikanın müdiri Əfrail Ağayev, "2016-cı ilin iyun ayında rayon üzrə doğuşların vəziyyəti barədə, rayonun baş pediatrı, Əməkdar həkim Etibar Həşimov, "Cari ilin iyun ayında doğumun, körpə və uşaq ölümünün vəziyyəti barədə" ginekoloji şöbənin müdiri Əməkdar həkim Sadiqə Ruhullayeva məruzə etmişlər.



Paster kənd həkim məntəqəsinin müdiri Nizami Suvarov səhiyyədə uzunmüddətli və səmərəli xidmətlərinə, ictimai işlərdə fəallığına, yurd, vətən sevgisinə, gənclərə vətənsevərlik ruhu ucaldığına görə "Avropa və Nəşr Evi"nin "Ən yaxşı vətənpərvər həkim" Qızıl medalı və diplomu təqdim olunmuş, həmkarları onu təbrik etmişlər.

Məruzələr ətrafında çıxışlar olmuş və müzakirə olunan hər üç məsələ barəsində müvafiq qərar qəbul edilmişdir.

**"Lerik"**

# Etibarlı ərzaq təminatı ölkənin iqtisadi sabitliyinin əsas şərtidir



*Nizaməddin Muradov,*
*Rayon Statistika İdarəsinin rəisi*

**Son illərdə Azərbaycanda həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün hərtərəfli zəmin yaradılıb. Aqrar sektorda əsaslı dəyişiklik baş verib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb, normativ hüquqi baza təkmilləşdirilib.**

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, dünya iqtisadiyyatında baş verən hadisələr bu gün aqrar sektorda fəallığı artırmağı tələb edir. Ölkə başçısı deyib: "Kənd təsərrüfatının inkişafı bizim üçün həmişə prioritet olub, indiki şəraitdə bunun önəmi daha da artır". Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığın başlıca şərtidir.

Bu bir danılmaz həqiqətdir ki, ölkə başçısının yürütdüyü məqsədyönlü siyasət nəticəsində iqtisadiyyat gündən-günə inkişaf edir, əhalinin həyat tərzi yaxşılaşır. Yoxsulluq səviyyəsi getdikcə azalır. Dünyanı bürüyən qlobal böhran şəraitində ölkə rəhbərliyinin fədakarlığı nəticəsində bütün sahələrdə, o cümlədən də kənd təsərrüfatında inkişaf davam edir. Hazırda kənd təsərrüfatının əkinçilik sahəsi genişləndirilir, heyvandarlıqda cins mal-qaranın yetişdirilməsi məqsədilə tədbirlər həyata keçirilir.

Sadalanan tədbirlər rayonumuzda da uğurla aparılır. 2016-cı ildə 4255 hektar sahədə əkin aparılmışdır ki, bu da ötən ildəkindən 715 hektar və ya 20,2 faiz çoxdur. Hazırda rayon üzrə taxıl yığımına başlanılmışdır. Bu günə qədər 1065 hektar sahədə taxıl biçini başa çatdırılmış, 19383 sentner məhsul götürülmüşdür. Rayonumuzda taxıl biçini sürətlə davam etdirilir. Bundan əlavə, ilk dəfə olaraq rayonumuz üçün ənənəvi olan tütün bitkisi 10 hektar sahədə əkilmişdir. Aparılmış müşahidələr göstərir ki, hazırda sahələrdə bol məhsul yetişir ki, bu da gələcəkdə kənd əməkçilərinin gəlirlərinin artmasına səbəb olacaqdır.

Rayonumuzda 37033 baş qaramal, 128618 baş qoyun-quzu vardır.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 128 baş qaramal, 213 baş qoyun-quzu çoxdur. Mövcud heyvanlardan 1671,4 ton ət (ötən illə müqayisədə 355 ton çox), 9537,1 ton süd (ötən illə müqayisədə 33,3 ton çox) istehsal edilmişdir. 231 ton yun (ötən ildəkindən 2 ton çox), 2545 min ədəd yumurta (ötən ildəkindən 7 min ədəd çox) istehsal olunmuşdur. Ümumilikdə götürdükdə, rayonumuzda bütün sahələrdə inkişaf və tərəqqi müşahidə olunur.

# HƏDSİZ MİNNƏTDARAM

Cərrahi əməliyyatdan sonra bir neçə dəfə vəziyyətim ağırlaşıb. Sağ olsun həkimlər, hər dəfə mənə diqqət və qayğılarını əsirgəmədilər, sağlamlığımı bərpa etmək üçün borclarını yerinə yetirdilər.

Yenə də vəziyyətim birdən-birə dəyişmişdi, özümü son dərəcə pis hiss edirdim. Məni Lerik rayon mərkəzi xəstəxanasına çatdırdılar. İlk öncə məni həkim Zeynalabdin Ramazanov qarşıladı. Mənə ilk yardımlarını göstərdi, nəfəsim açıldı.

Çox keçmədi ki, baş həkim, hörmətimi qazanmış Mübariz Ağayev, həkim Əfrail Ağayev, Kamran Cahangirov, Nurxan Əzizov və adlarını bilmədiyim tibb işçiləri məni hərtərəfli müayinə edib yekdil rəyə gəldilər. Müalicə etdilər, təskinlik verdilər. Özümü yaxşı hiss etməyə başladım. Evə yollanarkən məni çətin vəziyyətdən çıxarmış bütün həkimlərə, tibb işçilərinə minnətdarlıq etdim. Bu məktubu "Lerik" qəzetinə yazmaqda məqsədim onlara hədsiz minnətdarlığımı bildirməkdir.

**Ağaş Mirzəyev,**
**Günəşli kəndi**

# Bizim Şakir müəllim

**Dahilərdən birindən soruşurlar:**
**- Dünyadan ən şərəfli sənət hansıdır?**

O, deyir:

- Mən fikirləşmədən cavab verərdim: müəllimlik.

Doğrudan da müəllimlik şərəfli və ləyaqətli sənətdir. Dünyanın ən böyük dahiləri də müəllimdən dərs alıblar. Şakir Babayev müəllim sənətini sevəndə bu ali peşənin hamıya gərək olduğunu bilirdi.

Şakir Babayev 1984-cü ildə ali təhsilini başa vurmuşdur. O, doğulduğu kənd məktəbinin ili təhsili rus dili müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Hazırda bu məktəbin direktorudur.



Şakir müəllim peşəsi ilə fəxr edir. Hər dəfə yetirmələrinin xoş soraqı yaxın, uzaq ünvanlardan gələndə o da sevinir, fərəh hissi keçirir. Lüləkəranlı müəllimlərin çəkdiyi zəhmətin nəticəsidir ki, məktəbin məzunu Zahid Babazadə BDU-nun kompüter elmləri ixtisası üzrə 561 balla tələbə adına layiq görülüb.

Şakir Babayev gənc nəslə elm, bilik, tərbiyə, vətənsevərlik yolunda ömrünü şam kimi əritməkdən mənəvi zövq alır. O, müəllim və şagird fəaliyyətlərini bir-birinin tamamlamasına müasir tələb kimi yanaşır.

Yeddi övlad, nəvə sahibi olan Şakir müəllim ömrünü mənalı çağlarını yaşayır. İndi o, ömrünün 60-cı ilinə qədəm qoyub. Bu yolda ona uzun ömür və cansağlığı arzu edirik.

**"Lerik"**

# ALLAH RƏHMƏT ELƏSİN

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov və aparatın kollektivi Azərbaycan Milli Ordusunun əsgəri
**VÜSAL ƏLİYEVİN**
şəhid olmasından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Lerik Rayon İcra Hakimiyyətinin kollektivi icra başçısı Rövşən Bağırova
**Bibisinin**
vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.
Tel.: (070) 520-73-91 (0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 240 Tiraj: 600

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.